DOI: 10.36719/2663-4619/60/27-30

**Rahilə Mirzəli qızı Məmmədova**
rahile.mamedova.1959@mail.ru
Mingəçevir Dövlət Universiteti

# ŞAGİRD NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

***Açar sözlər:*** *nitq, nitq inkişafı, təlim, nitq mədəniyyəti, lügət işi, fonetik norma, cümlə*

**Ways to develop student speech**
**Summary**

Speech is not only directly involved in the creation of human mental activity, but also forms its basis. Students also acquire knowledge of foreign objects and events by mastering perfect speech.
Schooling has a special role to play in increasing students' opportunities and resources for speech development.

The concept of speech development should be implemented in four directions:
1. To enrich the vocabulary of students;
2. To develop the habits of students;
3. To develop students' communication skills;
4. To develop students' reading skills.

The model of the teacher plays an important role in the development of students' speech. In Azerbaijani language and literature classes, the teacher's speech (expressive reading, narration, report, speech, dialogue, etc.) has a strong impact on students. Orthoepic requirements must be taken into account during speech development. These requirements bring naturalness, fluidity, vitality to speech, enhance its aesthetic effect and help to easily grasp the idea.

The main unit of speech is considered to be the sentence. Therefore, it is important to pay special attention to the development of students' skills of correct sentence construction. Sentence-building skills are practiced from the first grade, and these skills are developed and strengthened as students move from class to class.
***Key words:*** *speech, speech development, training, speech culture, vocabulary work, phonetic norm, sentence*

İnsanın mədəni yetkinliyinin, cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi formalaşmasının meyarlarından biri olan nitq mədəniyyətinə yiyələnməsi məktəbin qarşısında duran ən mühüm ümumpedaqoji problemlərdən biridir. Məktəbdə uşaqların təfəkkürünü inkişaf etdirməklə, şübhəsiz ki, biz onların nitqinə təsir göstərir, nitqini inkişaf etdirməklə onların təfəkkürünün inkişafına təkan vermiş oluruq.

Nitq insanın əqli fəaliyyətinin yaranmasında bilavasitə iştirak etməklə yanaşı, həmçinin, onun əsasını da təşkil edir. Şagirdlər mükəmməl nitqə yiyələnməklə xarici əşya və hadisələr haqqında biliklərə də sahib olurlar.

Nitq mədəniyyətinin yüksək səviyyəsi yalnız onun dilin bütün cəhətləri (fonetika, orfoepiya, orfoqrafiya, leksika, söz yaradıcılığı, morfologiya, sintaksis, üslubiyyat) ilə təbii surətdə birləşdirilməsi şəraitində təmin edilə bilər. Nitqdə təbiilik, təmizlik, məqsədyönlülük, məntiqilik, zənginlik, müyəssərlik, düzgünlük, aydınlıq, sadəlik, səlislik, yığcamlıq, obrazlılıq, gözəllik, incəlik, nəzakətlilik, ardıcıllıq, ekspressivlik, emosionallıq kimi normalar gözlənilməlidir.

Məktəb təlimi şagirdlərin nitq inkişafının imkanlarını və mənbələrini artırmaqda xüsusi rola malikdir. Şagirdlər təbiət və insanların əməyi üzərində müşahidələr aparmaqla, yoldaşları və ətrafdakılarla ünsiyyət saxlamaqla, çox kitab oxumaq və müxtəlif çıxışlar etməklə daim nitqlərini inkişaf etdirirlər. Burada çalışmaq lazımdır ki, onlar müşahidə etdikləri varlıq haqqında fikirlərini daha dəqiq və düzgün əks etdirə bilsin, onların nitq vasitəsilə işlətdikləri sözlər ifadə etdikləri anlayışlara, fikirlərə uyğun gəlsin.

Nitq yalnız fikirlərin ifadə vasitəsi deyil, həm də onların yaranma silahıdır. Buna görə də müəllim şagird nitqinin inkişafı ilə birlikdə onların təfəkkürünü də inkişaf etdirməlidir. K.D.Uşinskinin dediyi kimi, uşaqların dil sahəsindəki qabiliyyətini inkişaf etdirmək üçün, hər şeydən öncə, onlarda düzgün fikirləşmək bacarığını inkişaf etdirmək lazımdır. “Fikirdən ayrılıqda dili inkişaf etdirmək mümkün deyil, ona üstünlük verərək, fikirdən əvvəl inkişaf etdirmək isə, şübhəsiz, zərərlidir” [1, 416 ]. Nitq inkişafı üzrə işlər Azərbaycan dili tədrisinin bütün mərhələlərində xüsusi yer tutur, hətta Azərbaycan dili təliminin ana xəttini təşkil edir. Məktəblilərdə düzgün, işlək nitq bacarıqlarının formalaşdırılması dil təliminin başlıca didaktik

vəzifələrindəndir. Əslində, hər bir Azərbaycan dili və ədəbiyyat müəlliminin fəaliyyətinin nəticəsi onun şagirdlərinin əldə etdiyi nitq və yazı mədəniyyətinin səviyyəsi ilə ölçülür.

Nitq inkişafı anlayışı dörd istiqamətdə həyata keçirilməlidir:

1. Məktəblilərin lüğət ehtiyatını zənginləşdirmək;
2. Məktəblilərin vərdişlərini inkişaf etdirmək;
3. Məktəblilərin rabitəli nitq vərdişlərini inkişaf etdirmək;
4. Məktəblilərin oxu vərdişlərini inkişaf etdirmək.

Hər hansı bir dildə nitq inkişafı üzrə işin əsas istiqamətlərindən biri lazımi lüğət ehtiyatının olmasıdır. Şagirdlərin nitqinin formalaşdırılması, zəruri lüğət fondunun yaradılması uzun vaxt aparan bir prosesdir. Nitq üzrə aparılan işin məzmununu lüğət ehtiyatının yaranması, lüğətin dəqiqləşmə, təmizlik və fəallığı təşkil edir. Görkəmli metodistlərimizdən Əziz Əfəndizadə, Bəşir Əhmədov, Yəhya Kərimov, Həsən Balıyev, Adil Balıyev və b. nitq inkişafı məsələləri ilə bağlı elmi əsər və dərsliklərində məktəblilərin lüğət ehtiyatının zənginləşdirilməsi yollarını aydınlaşdırmışlar.

Nitq inkişafı üzrə işlərin, xüsusilə, şifahi nitq bacarıqlarının formalaşdırılmasının ikinci əsas şərti düzgün ədəbi tələffüz və ifadəli oxu vərdişlərinin inkişaf etdirilməsidir. Nitq inkişafının bu istiqaməti üzrə mühüm işlər görmüş tədqiqatçılardan N.Əhmədov, Ə.Əfəndizadə, N.Abdullayev və başqalarının fikrincə nitqdə ədəbi tələffüz normalarına əməl etmək, vahid nitq rejimini yaratmaq şifahi nitqin anlaşıqlıq və təsir gücünü artırar. Hansısa bir dilə məxsus sözlərin az bir qismini bilmək və onları həmin dilin danışıq normalarına, tələffüz qaydalarına uyğun şəkildə ifadə etmək nitq üçün o qədər də kifayət deyildir. Deməli, buradan yeni bir istiqamət ortaya çıxır: nitq inkişafının əsas şərtlərindən biri də cümlə qurmaq vərdişlərinin inkişafı üzrə işlərdir. Demək olar ki, məktəblərdə bu sahəyə aid işlər lazımi səviyyədə aparılır və müşahidələrdən məlum olur ki, bu sahədə müəyyən qədər işlər görməyən hər hansı metodistə və ya müəllimə rast gəlmək mümkün deyil.

Lüğət ehtiyatına sahib olmaq, ədəbi tələffüz normalarına əməl etmək, qrammatik qaydalara uyğun cümlələr qura bilmək hələ kamil nitqə, fikri dəqiq çatdırmaq qabiliyyətinə yiyələnmək demək deyildir. Söylənəcək fikrin məzmunu, onun hansı çalarda, hansı üslubda deyilməsi də nitqin mahiyyətinə aid məsələlərdəndir. Buradan məlum olur ki, nitq inkişafı üzrə aparılan işlərin əsas istiqamətlərindən biri də şagirdlərin nitqinin üslubca zənginləşdirilməsi üzrə işlərdir. Bu məsələyə aid ilktədqiqat işi H.Balıyev tərəfindən aparılmış, sonradan Ə.Kəlbəliyev, Ə.Rəhimova da öz tədqiqat işlərini bu sahəyə həsr etmiş və bu barədə faydalı fikirlər söyləmişlər. Lakin məktəblərdə bu sahə üzrə aparılan işlərdə hələ də çatışmazlıqlar özünü göstərir.

Azərbaycan dilinin tədrisində rabitəli nitq xüsusi təlim predmetinə, bacarıqlar sisteminə malik bir bölmədir və Azərbaycan dili proqramında rabitəli nitqə dair hər tədris ili üçün müəyyən təlim prinsipləri nəzərdə tutulub. Rabitəli nitq inkişafı üzrə aparılan işlər əvvəl sadaladığımız nitq inkişafı üzrə aparılan işlərin yekunu və nəticəsidir. Hər bir Azərbaycan dili müəlliminin nitq inkişafı üzrə apardığı işlərin nəticəsi məktəblilərin rabitəli nitq vərdişlərinə yiyələnməsi ilə eynilik təşkil edir.

Son vaxtlar ölkəmizdə rabitəli nitq inkişafı məsələlərinə xüsusi diqqət yetirilir və onun orta məktəb tədrisindəki mövqeyi ön plana çəkilir. Bir çox metodistlərimiz, o cümlədən, Y.Kərimov, K.Kərimov, N.Abdullayev, Ə.Əfəndizadə, Ə.Əhmədov, S.Quliyeva, S.Vəliyev, Ə.Kəlbəliyev bu sahədə xüsusi tədqiqat işləri aparmışlar [2, 118].

Orta məktəb şagirdləri qrammatik normaları öyrənməklə şifahi və yazılı nitqin bir çox sirlərinə bələd olurlar. Bununla bərabər uşaqların nitqinin zənginləşdirilməsi və düzgün qurulması üzrə məqsədyönlü işlər aparılmalıdır. Şagirdlərin nitqi praktik şəkildə mənimsəmələri üzrə iş bütün fənlərin tədrisində, həmçinin, evdə, tənəffüslərdə, sinifdənxaric məşğələlərdə, ictimai-faydalı işlərdə, əmək prosesində və s. getməlidir. Bu prosesdə uşağı başlı-başına buraxmaq, ünsiyyət zamanı nitqin öz-özünə inkişaf edəcəyinə ümid bəsləmək böyük yanlışlıq olardı. Hər bir müəllim uşaqlara düzgün danışığı öyrətmə prosesində onların sözləri necə tələffüz etməsinə, fikri düzgün və dəqiq ifadə etmək üçün söz və ifadələri necə seçməsinə, vurğunu necə işlətməsinə, intonasiyaya, sürətə və s. fikir verməli, sezdiyi nöqsanları ehtiyatla düzəltməlidir. Məktəblilərin nitqinin inkişafı üzərində belə ardıcıl iş aparmadan, fikirlərini ifadə etmək üçün lazımi sözü və ifadəni diqqətlə seçməyi, fikri məntiqi cəhətdən düzgün qurmağı öyrətmədən istənilən nəticəni əldə etmək mümkün deyil.

Müəllimlərlə aparılan söhbətlər zamanı məlum olur ki, onların çoxu nitq inkişafı deyəndə ədəbi dilin qayda-qanunlarını öyrətməyi nəzərdə tuturlar. Yəni, onlar belə hesab edirlər ki, əgər şagird sözü düzgün tələffüz edir, onu orfoqrafik cəhətdən səhvsiz yazır və düşündüyünü olduğu kimi başqalarına çatdırmağı bacarırsa, demək, onun nitqi istənilən səviyyədədir. Əlbəttə ki, bütün bu deyilənlər doğrudur və lazımdır.

Lakin nitq inkişafını yalnız ədəbi dilin qayda-qanunlarına yiyələnmək şəklində şərh etmək bu anlayışı birtərəfli başa düşmək deməkdir.

Məlumdur ki, mövcud olan hər bir şey, o cümlədən də nitq məzmun və formaya malikdir. Nitqin məzmunu dedikdə, insanların maddi aləmin qanunauyğunluqları haqqındakı bilikləri, nitqin forması dedikdə isə həmin biliklərin mövcudluq üsulu, ifadə forması olan dil-nitq vahidləri (söz, cümlə və onların birləşməsi) nəzərdə tutulur. Yəni, sözün ifadə etdiyi məfhum həmin sözün məzmununu təşkil edir, söz özü isə bu məfhumun varlıq üsulu, ifadə formasıdır. Cümlənin ifadə etdiyi hökm, onun(cümlənin) məzmunu, cümlə isə bu hökmün varlıq üsulu, ifadə formasıdır. Rabitəli nitqin əsasını təşkil edən fikir onun (rabitəli nitqin) məzmunu, dil isə məzmunun (fikrin) varlıq üsulu, ifadə formasıdır. Deməli, nitq bir-birindən ayrılmaz olan, vəhdət təşkil edən iki hissədən – məzmun və formadan ibarətdir.

Görkəmli şəxsiyyətlər hər zaman nitq inkişafında ifadə ediləcək fikrin (məzmunun) mənimsədilməsinə ciddi əhəmiyyət vermiş, məzmunla forma vahidlərini gözləməyin zəruriliyini göstərmişlər. Məsələn, xalq şairi Səməd Vurğun məna gözəlliyini hər şeydən üstün tutaraq deyirdi: “Mən bütün əsərlərə, hər şeydən əvvəl, məna gözəlliyi qarşısında pərəstiş etməyə alışmışam. Çünki heç bir gözəlliyin ömrü məna gözəlliyinin ömrü qədər uzun ola bilməz” [3, 74].

Deyilənləri nəzərə alaraq nitq inkişafına belə bir tərif verə bilərik: nitq inkişafı bir tərəfdən ifadə ediləcək fikrin elmin müasir inkişafına və şagirdin səviyyəsinə uyğun mənimsənilməsi, digər tərəfdən isə həmin mənimsənilmiş məzmunun ədəbi dil nöqteyi-nəzərindən düzgün ifadə edilməsi deməkdir.

Məzmunla formanın vəhdətində üstünlük birinciyə, məzmuna verilməlidir. Ümumiyyətlə, müəllim şagirdlərin nitqini inkişaf etdirmək üçün hər şeydən öncə onlara mükəmməl bilik verməli, daha sonra bu biliyin ifadəsi üzrə iş aparmalıdır.

Müasir dövrdə məktəblilərin nitq inkişafı, onların kommunikativ bacarıqlarının formalaşdırılması xüsusi həyati bacarıqlardan biri kimi mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, müsair dövrdə məktəblərdə şəxsiyyətin inkişafı təlim prosesinin bütün koponentlərini, eyni zamanda kommunikativ bacarıqları əhatə edən şəxsiyyətyönümlü yanaşma ilə inkişaf edə bilər. Kommunikativ bacarıqlar dedikdə ilk öncə şagirdlərin proqramın tələbləri dairəsində şəxsiyyətlərarası, mədəniyyətlərarası dialoqa girmək, konkret situasiyada ünsiyyəti, əməkdaşlığı reallaşdırmaq, dialoji və monoloji nitq bacarıqları nəzərdə tutulur.

Aydındır ki, Azərbaycan dilinin bədii, obrazlı-emosional ifadə imkanları, leksik və frazeoloji əlvanlığı, üslubi çalarları söz sənətimizin kamil nümunələrində öz əksini tapır. Təsadüfi deyildir ki, bədii üslub Azərbaycan ədəbi dili tarixində hər zaman aparıcı rol oynamış, hətta, müəyyən mərhələlərdə bütövlükdə ədəbi dili təmsil etmişdir. Bədii əsərlərimizin dili müasir xalq danışıq dilinin ən yaxşı keyfiyyətlərinin ifadəçisi olduğu üçün onun öyrənilməsi də şagirdə öz fikir və hislərini daha da ətrafı şəkildə ifadə etmək imkanı verir. Şagird bədii ədəbiyyatda dildən istifadənin müxtəlif imkanlarını əyani surətdə görür və bu da onun nitqinin inkişafına təsirsiz qalmır.

Azərbaycan dili və ədəbiyyat dərslərinin keçirilməsi metodikası, şifahi və yazılı təmrinlər, yaradıcı tapşırıqlar sistemi hər bir şagirdin fikrini, emosional-obrazlı inkişafını və nitq bacarıqlarının formalaşdırılmasını təmin etməlidir. Müxtəlif tiplitapşırıqlar, müstəqil işlər məktəblilərin yaradıcılıq qabiliyyətlərinin, tənqidi mühakimə yürütmək bacarığının inkişafına zəmin yaratmalıdır.

Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurikulumu çərçivə sənədində qeyd edilir ki, şifahi nitqin inkişafı əsas götürülməklə şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, ünsiyyət bacarıqlarının formalaşdırılması, ən zəruri qrammatik anlayışların və dil konstruksiyalarının mənimsənilməsi, dinləyib-anlama vərdişlərinin inkişafı təmin olunur. Şagirdlərin bu zəmində ünsiyyət mədəniyyətinə və kommunikativ bacarıqlara sahib olmaları xüsusi əhəmiyyət kəsb edən məsələlərdəndir.

Bu baxımdan məktəblilərin psixoloji xüsusiyyətlərini nəzərə almaqla müxtəlif situasiyalarda tətbiq olunan şifahi və yazılı nitqə aid nümunələr, sual və tapşırıqlar sistemindən istifadə çox faydalıdır. Bunlar nəticə etibarilə şagirdlərin nitqini inkişaf etdirməyə - proqramın tələbləri səviyyəsində onların müxtəlif bacarıqlara – səsləri və sözləri düzgün tələffüz etmək, cümlə qurmaq, mətn tərtib etmək, məntiqi vurğuya, ifadəliliyə əməl etmək, informasiyanın məzmunu ilə əlaqədar hiss və həyəcanları, ideyanı çatdırmaq və s. yiyələnmələrinə imkan verir.

Məktəblilərin şifahi və yazılı nitqinin inkişaf etdirilməsi zamanı stimullaşdırma, nitq situasiyalarının zəmin rolu oynaması, mətn, əyanilik, texniki vasitələr, təsvir, nağıletmə və mühakimə səciyyəli tapşırıqlardan məqsədyönlü istifadə məsələlərinə xüsusi diqqət yetirilməlidir.

Ədəbiyyat dərslərində şagirdlərin nitq inkişafı üzrə işlər söz sənətinin qanunlarının şagirdlər tərəfindən dərindən dərk edilməsi yolu ilə aparılır. Şagirdlərin nitq inkişafı üzrə işin prinsipləri aşağıdakılardır:

1. Nitq inkişafı üzrə işlərin ardıcıl, sistemli aparılması;
2. Nitq inkişafı üzrə işlərin şagirdlərin bədii əsər barədə təəssüratları, şəxsi həyat təcrübəsi əsasında aparılması;

3. Nitq inkişafının şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, plan tərtibi, inşa yazılması, çıxış hazırlanması, nağıletmənin müxtəlif növləri və s. praktik işlərlə üzvi vəhdətdə aparılması;

4. Nitq mədəniyyətinə yiyələnmə uzun və yaradıcı proses olduğu üçün şagirdlərin bilik və bacarıqları yeni situasiyada tətbiq etməyə alışdırılması;

5. Monoloji və dialoji, şifahi və yazılı nitqin inkişafı üzrə işlərin əlaqələndirilməsi.

Nitq inkişafı üzrə işlər iki istiqamətdə aparılır:

1. Şifahi nitqin inkişafı;
2. Yazılı nitqin inkişafı.

İstər şifahi, istərsə də yazılı nitqə verilən tələblər bunlardır: dəqiqlik, aydınlıq, məntiqilik, şərhin əsaslandırılması ədəbi normalara uyğunluq, emosionallıq və s.

Şagirdlərin nitqinin inkişaf etdirilməsi üçün müəllimin nümunəsi böyük rol oynayır. Azərbaycan dili və ədəbiyyat dərslərində müəllimin nitqi (ifadəli oxu, nağıletmə, məruzə, çıxış, dialoq və s.) şagirdlərə güclü təsir göstərir. Müəllimin nitqindəki məzmun, fikir zənginliyi, mövzuya dərin bələdlik, fonetik, leksik, qrammatik normaların gözlənilməsi şagirdlər üçün nümunəyə çevrilməlidir.

Məktəblilərin şifahi və yazılı nitqini inkişaf etdirmək üçün müəllim aşağıda göstərilən bir sıra məsələləri bilməlidir.

Şifahi və yazılı nitqin başlıca cəhətlərini, ədəbiyyat dərslərində nitq inkişafının əsas xüsusiyyətlərini

Ədəbiyyat dərslərində nitqi inkişaf etdirmə prinsiplərinin (şagirdin yaşadığı dil mühitinin, onların şəxsi qabiliyyətlərinin, dərs zamanı psixoloji şəraitin, mövzunun xüsusiyyətlərinin və s.) nəzərə alınması

Şifahi nitqi inkişaf etdirmək üçün məzmun xəttinin əhatə etdiyi məsələləri

Yazılı nitqi inkişaf etdirmək üçün məzmun xəttindəki alt-standartların əhatə etdiyi məsələləri.

Şagirdlərin şifahi nitqini - ədəbi-bədii nitqini inkişaf etdirmək işində müəllim bir sıra qaydaları əldə rəhbər tutmalıdır:

a) Şagirdin yaşadığı dil mühiti nəzərə alınmalı, onun nitqinə, çıxışına daim dəstək verilməli

b) Şagirdlərin şifahi nitqinin inkişafını artırmaq üçün fəal dinləmə vərdişinə yiyələnməsi təmin edilməli. Bununla da şagird hiss etməlidir ki, onun hər bir çıxışı müəllim tərəfindən dəstəklənəcək

c) Şagirdlərin şəxsi qabiliyyətlərinin nəzərə alınması – dərs prosesində hər zaman psixoloji dəstəyin verilməsi,

ç) Psixoloji şəraitin yaradılması – hər bir şagirdin öz fikrini sərbəst şəkildə ifadə etmək imkanının tanınması, onlara tam sərbəstlik verilməsi, müxtəlif fikirlərə hörmətlə yanaşılması, psixoloji diskomfortun aradan qaldırılması

d) Mövzunun xüsusiyyətlərinin və məzmun xətlərinin tələblərinin nəzərə alınması – hər bir müəllim bilməlidir ki, mövzunun tədrisi zamanı bu anda hansı alt-standartın işlədilməsi daha məqsədəuyğundur.

Nitq inkişafı zamanı orfoepik tələblər nəzərə alınmalıdır. Bu tələblər nitqə təbiilik, axıcılıq, canlılıq gətirir, onun estetik təsirini gücləndirir və fikrin asan qavranılmasına kömək edir. Nitq inkişafı üzrə işlər təşkil edilərkən lüğət ehtiyatının zənginləşdirilməsində sinif müəllimləri I-IV siniflər üçün yazılmış "Azərbaycan dili" dərsliklərinin əvvəlcədən leksik tərkibini müəyyənləşdirməli, bundan sonra həmin istiqamətdə lüğət işlərini təşkil etməlidirlər.

Lüğət ehtiyatının zənginləşdirilməsi nitq inkişafı üzrə aparılan işin əsasını təşkil etsə də, başlıca nitq vahidi cümlə hesab edilir. Çünki hər kəs öz fikrini ayrı-ayrı sözlər şəklində yox, bitmiş cümlələr vasitəsilə ifadə edir. Bunu nəzərə alaraq məktəblilərin düzgün cümlə qurmaq vərdişlərinin inkişafına xüsusi diqqət yetirmək vacibdir. Cümləqurmaq vərdişləri birinci sinifdən etibarən aparılır və şagirdlər sinifdən-sinfə keçdikcə bu vərdişlər inkişaf etdirilərək möhkəmləndirilir.

Çünki burada "məktəblinin işi söz sənəti əsəri ilə bağlı olur" və "o sanki adi dil mühitindən çıxır və başqa bir dil mühitinə - yazıçının həyata estetik münasibətini ifadə etmək missiyasını öhdəsinə götürən bədii dil aləminə düşür" [4, 59].

## Ədəbiyyat

1. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodokası. Bakı: "Nasir", 2003, 520s.
2. Balıyev H.B., Balıyev A.H.Azərbaycan dilinin tədrisi metodikası. Bakı: "Elm və təhsil", 2019, 384s.
3. Kərimov Z. İbtidai siniflərdə nitq inkişafı "Elmi əsərlər" bülleteni, Bakı: "Müəllim", №12, 2003
4. Cəfərova N.B. Nitq inkişafı üzrə işin metodikası. Bakı: ADPU-nəş 2018, 234s.

**Rəyçi: dos. Ş.Ağakişiyeva**

Göndərilib: 17.11.2020 Qəbul edilib: 19.11.2020